**Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2022-ci il 17 yanvar tarixli 6/t nömrəli əmri ilə təsdiq edilmişdir.**

# Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rayon (şəhər) statistika idarəsi haqqında Əsasnamə

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin (bundan sonra - Dövlətstatkom) rayon (şəhər) statistika idarəsi (bundan sonra – idarə) rayon (şəhər) ərazisində statistika sahəsində dövlət siyasətini həyata keçirən və müvafiq rayon (şəhər) üzrə sosial, iqtisadi, demoqrafik və ekoloji vəziyyətə dair rəsmi statistik məlumatları vahid metodologiya əsasında formalaşdıran yerli statistika orqanıdır. İdarə Dövlətstatkomun sistemində fəaliyyət göstərir və bilavasitə ona tabedir.

1.2. İdarə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları, Dövlətstatkomun kollegiyasının qərarlarını, Dövlətstatkomun sədrinin qərar, sərəncam, əmr və göstərişlərini, habelə bu Əsasnaməni rəhbər tutur.

1.3. İdarə vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Dövlətstatkomun aparatının şöbələri və sisteminə daxil olan qurumlar, eləcə də dövlət və yerli özünüidarəetmə orqanları, özəl sektor, kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. İdarə müstəqil balansa, qanunvericiliyə uyğun olaraq sərəncamında olan dövlət əmlakına, xəzinə hesablarına, üzərində Azərbaycan Respublikasının Dövlət Gerbinin təsviri, Komitənin və öz adı həkk olunmuş möhürə, müvafiq ştampa və blanklara malikdir.

1.5. İdarənin saxlanması xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsi və mövcud qanunvericiliyə zidd olmayan digər mənbələr hesabına maliyyələşdirilir.

## 2. İdarənin fəaliyyət istiqamətləri

2.0. İdarənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.0.1. rayonda (şəhərdə) rəsmi statistika sahəsində dövlət siyasətinin həyata keçirilməsini təmin edir;

2.0.2. yerli statistika orqanları üçün illik statistik işlər proqramına uyğun olaraq statistik məlumatların vaxtında toplanmasını, yoxlanmasını və təhlilini həyata keçirir;

2.0.3. rayonun (şəhərin) sosial, iqtisadi, demoqrafik və ekoloji vəziyyətini xarakterizə edən rəsmi statistik məlumatları hazırlayır;

2.0.4. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. İdarənin vəzifələri

3.0. İdarə bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq, aşağıdakı vəzifələri yerinə yetirir:

3.0.1. Dövlətstatkom tərəfindən təsdiq edilmiş yerli statistika orqanları üçün illik statistik işlər proqramı və rüblük iqtisadi iş planları əsasında aylıq iş planını işləyib hazırlamaq, təsdiq etmək və görülmüş işlərlə bağlı Dövlətstatkomun aparatına hesabat təqdim etmək;

3.0.2. rəsmi statistika hesabatı və statistik müayinə formaları əsasında zəruri statistik məlumatların əldə olunmasını, habelə dövlət (region) müşahidələrinin aparılması üçün müvafiq rayonun (şəhərin) ərazisində yerləşən bütün hüquqi şəxslər (onların nümayəndəlik və filialları) və fiziki şəxslər tərəfindən lazım olan məlumatların elektron formada Dövlətstatkomun internet səhifəsində real-vaxt rejimində təqdim edilməsini təşkil etmək, siyahıyaalmaların və seçmə statistik müşahidələrin aparılmasını təmin etmək;

3.0.3. “Rəsmi statistika haqqında” Azərbaycan Respublikasının Qanunu və digər normativ hüquqi aktlarla müəyyənləşdirilmiş qaydada rəsmi statistika materiallarının hazırlanmasını təşkil etmək;

3.0.4. statistik vahidlər tərəfindən təqdim edilən məlumatların keyfiyyətini, onların mövcud metodologiyaya uyğunluğunu təmin etmək;

3.0.5. statistik məlumatları təhlil etmək, sosial-iqtisadi və demoqrafik proseslərə dair hesablamalar aparmaq;

3.0.6. rayonda (şəhərdə) fəaliyyət göstərən statistik vahidlərin təqdim etdiyi məlumatlar əsasında ümumiləşdirilmiş nəticələri əldə etmək, müəyyən olunmuş həcmdə və adda statistik məcmuələr, bülletenlər, mətbu-buraxılışlar və digər statistik materiallar nəşr etdirmək, onların istifadəçilər arasında yayılmasını təmin etmək;

3.0.7. statistik vahidlərin nümayəndələrinin iştirakı ilə uçot və hesabatla, həmçinin müxtəlif siyahıyaalmalarla bağlı təlimati xarakterli müşavirələr təşkil etmək;

3.0.8. ilkin məlumatların məxfiliyini təmin etməklə, rayonun (şəhərin) sosial-iqtisadi və demoqrafik vəziyyətini xarakterizə edən statistik materiallarla yerli icra hakimiyyəti orqanlarını və digər istifadəçiləri təmin etmək;

3.0.9. statistik vahidlərə statistik hesabatların, müayinə formalarının təqdim olunma vaxtı, dövriliyi və digər zəruri tələblər haqqında məlumat vermək;

3.0.10. seçmə statistika müşahidələrinin aparılması üçün yerli statistika orqanları tərəfindən dövlət büdcəsi vəsaiti hesabına kənardan cəlb edilən şəxsləri təlimatlandırmaq, onları müayinə formaları və metodoloji göstərişlərlə təmin etmək;

3.0.11. zərurət yarandığı hallarda kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə mətbuat konfransları keçirmək;

3.0.12. statistik vahidlərin müraciətləri əsasında onlara özlərinə aid məlumatları təqdim etmək;

3.0.13. statistik vahidlərin ilkin məlumatlarının konfidensiallığını təmin etmək;

3.0.14. ilkin statistik məlumatların qanunazidd əldə edilməsinin, yayılmasının və ya istifadə olunmasının qarşısını almaq üçün zəruri tədbirlər həyata keçirmək;

3.0.15. Dövlətstatkomun, həmçinin zərurət olduqda yerli icra hakimiyyəti orqanlarının və digər dövlət orqanlarının təşəbbüsü ilə keçirilən tədbirlərdə müəyyən edilmiş qaydada iştirak etmək;

3.0.16. mütəxəssislərin ixtisas və bilik səviyyəsinin artırılması üçün zəruri tədbirlər həyata keçirmək;

3.0.17. idarənin fəaliyyəti ilə bağlı daxil olan ərizə, təklif və şikayətlərə baxmaq və qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.0.18. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Dövlətstatkom tərəfindən idarəyə həvalə olunmuş digər vəzifələri yerinə yetirmək.

## 4. İdarənin hüquqları

4.0. İdarə öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.0.1. statistika ilə bağlı normativ hüquqi aktların hazırlanması və təkmilləşdirilməsi, statistikanın mövcud vəziyyəti və inkişafı ilə bağlı Dövlətstatkoma təkliflər vermək;

4.0.2. tabeliyindən, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, hüquqi şəxslərdən (onların nümayəndəlik və filiallarından) və fiziki şəxslərdən, o cümlədən rayonun (şəhərin) ərazisində qeydiyyatdan keçən və rayonun (şəhərin) ərazisində fəaliyyət göstərən xarici hüquqi şəxslərin nümayəndəliklərdən, filiallarından qanunvericilik aktlarına uyğun olaraq Dövlətstatkom tərəfindən müəyyən edilmiş qaydada, həcmdə və müddətlərdə haqqı ödənilmədən dolğun və etibarlı statistik məlumatlar almaq;

4.0.3. hazırlanmış statistik materialların (külliyyatların) və yerli statistika orqanları üçün statistik işlər haqqında illik proqramda işlənməsi nəzərdə tutulmayan digər göstəricilər üzrə məlumatların, icra, qanunvericilik və məhkəmə orqanları, kütləvi informasiya vasitələri istisna olmaqla, digər istifadəçilərə müəyyən olunmuş qaydada və haqqı dövlət büdcəsinə ödənilməklə satışını təşkil etmək;

4.0.4. məlumatların təhrif edilməsi halları aşkar edildiyi zaman hesabatlarda düzəlişlərin edilməsi üçün tədbirlər görmək, bu düzəlişlərin ilkin uçot sənədlərində əks etdirilməsi üçün hüquqi şəxslərə (onların nümayəndəlik və filiallarına) və fiziki şəxslərə tapşırıqlar vermək, bu məsələ ilə bağlı onlardan zəruri məlumatlar və arayışlar tələb etmək;

4.0.5. rayonun (şəhərin) sosial-iqtisadi vəziyyətinə dair yekun məlumatların aşkarlığını təmin etmək, öz fəaliyyətini ərazidə baş verən sosial-iqtisadi proseslərin obyektiv və hərtərəfli öyrənilməsi prinsipləri əsasında həyata keçirmək;

4.0.6. statistik müşahidələrin aparılması üçün zəruri olan məlumatların təqdim edilməməsinə və ya vaxtında təqdim edilməməsinə, yaxud hesabatların təhrif edilməsinə görə statistik vahidlər barəsində qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;

4.0.7. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Dövlətstatkom tərəfindən idarəyə həvalə olunmuş digər hüquqları həyata keçirmək.

## 5. İdarənin fəaliyyətinin təşkili

5.1. İdarəyə Dövlətstatkomun sədri tərəfindən vəzifəyə təyin olunan və vəzifədən azad edilən rəis rəhbərlik edir.

5.2. İdarənin rəisi:

5.2.1. idarənin fəaliyyətini mövcud qanunvericiliyə uyğun təşkil edir və ona rəhbərlik edir;

5.2.2. idarəyə həvalə olunmuş vəzifələrin həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır;

5.2.3. işçilər arasında vəzifə bölgüsü aparır;

5.2.4. Dövlətstatkom ilə razılaşdırmaqla (ştatdankənar işçilər və müayinələrin keçirilməsinə cəlb olunan sayıcılar istisna olmaqla) “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq işçiləri vəzifəyə təyin edir, vəzifədən azad edir;

5.2.5. işçilər barəsində qanunvericiliklə müəyyən edilmiş qaydada həvəsləndirmə və intizam tənbeh tədbirləri görür;

5.2.6. səlahiyyətləri daxilində idarənin fəaliyyətinə dair icrası məcburi olan əmrlər və göstərişlər verir, onların icrasını təşkil edir və bu sahədə nəzarəti həyata keçirir;

5.2.7. idarəni təmsil edir;

5.2.8. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

5.3. İdarə rəisi olmadıqda onun səlahiyyətlərini idarə rəisinin müavini (Bakı Şəhər Statistika İdarəsində səlahiyyət verilmiş idarə rəisinin müavinlərindən biri) həyata keçirir.

5.4. İdarənin fəaliyyətinin əsasını Dövlətstatkom tərəfindən təsdiq edilən yerli statistika orqanları üçün illik statistik işlər proqramı təşkil edir.

5.5. İdarə Dövlətstatkomun razılığı əsasında əsas fondlar və dövriyyə vəsaitləri, habelə balansda dəyəri göstərilən digər qiymətli əşyalar barəsində sərəncam verməyi və onları balansdan silməyi həyata keçirir.

5.6. İdarənin strukturu, ştat cədvəli və ayrılmış büdcə təxsisatı daxilində xərclər smetası Dövlətstatkom tərəfindən təsdiq edilir.